**AZƏRBAYCAN RESPUBLİKASININ**
**AUDİTORLAR PALATASI ŞURASININ**
**QƏRARI**

**Bakı şəhəri** **№374/2** **28 fevral 2025-ci il**

# 2024-cü ildə auditor təşkilatlarının və sərbəst auditorların apardıqları auditlərin keyfiyyətinə kənar nəzarətin vəziyyətinə dair icmal-təhlil barədə

Auditorlar Palatasının 2025-ci il üzrə iş planının 4.1-ci "2024-cü ildə auditor təşkilatlarının və sərbəst auditorların apardıqları auditlərin keyfiyyətinə kənar nəzarətin vəziyyətinə dair icmal-təhlilin hazırlanması" bəndinin icrasını təmin etmək məqsədilə Auditin innovativ inkişafı, operativ tənzimləmə və keyfiyyətin idarə edilməsi idarəsi (B.Orucov) və Palatanın Şurası yanında Keyfiyyətə nəzarət və keyfiyyətin idarə edilməsi üzrə komitə (E.Əliyev) tərəfindən hazırlanmış "2024-cü ildə auditor təşkilatlarının və sərbəst auditorların apardıqları auditlərin keyfiyyətinə kənar nəzarətin vəziyyətinə dair icmal-təhlil"i müzakirə edərək Auditorlar Palatasının Şurası

**QƏRARA ALIR:**

1. "2024-cü ildə auditor təşkilatlarının və sərbəst auditorların apardıqları auditlərin keyfiyyətinə kənar nəzarətin vəziyyətinə dair icmal-təhlil" Şura üzvlərinin irad və təklifləri nəzərə alınmaqla bəyənilsin (əlavə olunur).
2. Auditin innovativ inkişafı, operativ tənzimləmə və keyfiyyətin idarə edilməsi idarəsinə (B.Orucov) və Keyfiyyətə nəzarət və keyfiyyətin idarə edilməsi komitəsinə (E.Əliyev) tapşırılsın ki, "Auditor təşkilatları və sərbəst auditorlar tərəfindən aparılmış auditlərin keyfiyyətinin monitorinqinin həyata keçirilməsi üzrə 2025-ci il üçün Plan-qrafik"ə uyğun olaraq işlərin vaxtında və keyfiyyətlə yerinə yetirilməsi təmin edilsin.
3. Auditin innovativ inkişafı, operativ tənzimləmə və keyfiyyətin idarə edilməsi idarəsinə (B.Orucov) tapşırılsın ki, 2024-cü ildə auditor təşkilatlarının və sərbəst auditorların apardıqları auditlərin keyfiyyətinə kənar nəzarətin vəziyyətinə dair icmal-təhlilə əsasən "BAS 230 - Auditin sənədləşdirilməsi", "BAS 300 - Auditin planlaşdırılması", "BAS 500 - Audit sübutları" və "BAS 505 - Kənar mənbədən təsdiqləmələr" Beynəlxalq Audit Standartlarının tələblərinə əməletmə səviyyəsinin aşağı olduğu auditor təşkilatları və sərbəst auditorların peşə-ixtisas səviyyələrinin artırılması məqsədilə əlavə ödənişli təlimlərə cəlb edilməsinə dair təkliflərini iki həftə müddətində Palatanın rəhbərliyinə təqdim etsin.
4. Kadr hazırlığı idarəsinə (E.Behbudova) və Maliyyə və texniki təminat idarəsinə (B.Abbasov) tapşırılsın ki, bu qərarın 3-cü bəndindən irəli gələn məsələləri həll etsinlər.
5. Keyfiyyətə nəzarət və keyfiyyətin idarəedilməsi üzrə komitənin müfəttişləri – Hacı-Əzizov İlham İsfəndiyar oğluna, Kərimov Şamxal Vəli oğluna və Talıbov Vidadi Musa oğluna 2024-cü il ərzində keyfiyyətə kənar nəzarət qaydasında həyata keçirilmiş monitorinqlərdə fəal iştirak etdiklərinə görə təşəkkür elan edilsin.
6. 2024-cü il ərzində keyfiyyətə nəzarətə dair monitorinqlərdə fəal iştirak etmiş Auditin innovativ inkişafı, operativ tənzimləmə və keyfiyyətin idarə edilməsi idarəsinin əməkdaşları mükafatlandırılsınlar.
7. Bu qərarın və icmal-təhlilin mətnləri Palatanın internet səhifəsində yerləşdirilsin.

**Şuranın sədri** **Vahid Novruzov**